UOT 94(479.24); UOT 338

ŞƏHLA ƏHMƏDOVA
Sumqayıt Dövlət Universitetinin baş müəllimi,
AMEA Bakıxanov adına Tarix İnsitutunun dissertantı
ORCİD:0000-0002-1835-3061
muzefferomer71@gmail.com

2009-2016-CI İLLƏRDƏ QAZAX RAYONUNUN SOSİAL-İQTİSADİ İNKİŞAFI

DOI: https://doi.org/10.36719/2708-065X/111/193-197

Azərbaycan 1991-ci ildə müstəqillik qazandıqdan sonra ölkədə sovet dövründən qalma xalq və kənd təsərrüfatı sahələrinin itmiş görkəmini, məhsuldarlığı və dağınıqlığı aradan qaldırmaq üçün müəyyən proqrama malik bir strategiya həyata keçirmək dövrün zəruri tələbi idi. Belə bir Proqramı ölkə prezidenti İlham Əliyev hakimiyyətə gəlişinin bir ili tamam olmamış 2004-cü ildə elan etdi. Bu ölkənin və xalqın rifahı üçün elan edilmiş Regionların iqtisadi inkişafı Dövlət Proqramı idi. Proqramda ölkə üzrə hər bir regionun coğrafi, iqtisadi və sosial mövqeyi nəzərə alınaraq müəyyən edilmiş tədbirlər planı nəzərdə tutulmuşdur.Bizim məqalədə isə Dövlət Proqramına əsasən ölkəmizin qərb bölgəsi olan Qazax rayonunun sosial-iqtisadi inkişafı üçün 2010-cu ildən 2013-cü ilə qədər görülmüş sosial-iqtisadi işlər barədə məlumat verilmişdir. Məqalədə bu illərdə ölkə prezidentinin sərəncamlarına və büdcədən ayrılmış vəsaitlərə əsasən həyata keçirilmiş tikinti-quraşdırma və təmir-bərpa tədbirlərindən söz açılmışdır.

Açar sözlər: Qazax, Dövlət Proqramı, sosial-iqtisadi, prezident sərəncamı, regionlar.

Giriş: Azərbaycan Respublikası Prezidentinin Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində ölkəmizin hər bir regionunda olduğu kimi Qərb bölgəsində, o cümlədən Gəncə-Qazax iqtisadi rayonunda da xeyli sosial layihələr həyata keşirilmiş, əhalinin güzəranının yaxşılaşdırılması və ihfrastrukturun yenilənməsi istiqamətində bir sıra mühüm işlər görülmüşdür.

Ölkəmizin Qərb qapısı sayılan Qazax rayonunda da bu çərçivədə xeyli sosial-iqtisadi və mədəni tədbirlər, tikinti quruculuq işləri görülmüşdür.

Qazax qədim tarixə malik yaşayış məskənidir. Hələ tunc dövrünün sirlərini özündə qoruyub saxlamış Babadərviş, Neolit-Tunc dövrünün qalıqları Göytəpə və Damcılı bulağı kimi dünya əhəmiyyətli arxeoloji adidələr Qazax rayonunun bəşər tarixində ilk insan məskənlərindən (8 min il əvvəl) biri olduğunu sübut edir. Bunlardan əlavə rayonda 112 Respublika və yerli əhəmiyyətli arxeoloji, memarlıq və monumental abidə, habelə dekorativ sənət nümunəsi (yəni müxtəlif zoomorf və başqa şəkilli qəbirüstü abidələr) qeydə alınıb [2, s.9].

Qeyd edim ki, əlavə olaraq Qazaxın Yuxarı Əskipara və Şəkərqala kəndlərindəki məbədlər, Qıraq Kəsəməndəki Dairəvi Qüllə, Poylu kəndindəki məqbərələr, Qızılhacılı və Kazım körpüləri, Qızılqaya adidələri də öz qoynunda diyarın qədim tarixinin sirlərini qoruyub saxlayır.

Qazax etnoniminin etimologiyasına gəldikdə müxtəlif versiyalar mövcuddur. Biz isə bunlardan ən doğrusunun bir türk tayfasının adı ilə bağlı olduğu versiya hesab edirik. Məlum olduğu kimi qədim türk dilində "qazax" sözü "azad", "ayrılmış insanlar", "qoçaq əsgərlər" deməkdir. Tarixdən də məlumdur ki, XI-XII əsrlərdə güclü qıpçaq türk soyları olan qazaxları hərbi qüvvə kimi gürcü çarları tərəfindən Şimali Qafqazdan Şərqi Gürcüstana köçürmüşlər. Bununla əlaqədar olaraq Şərqi Gürcüstanda türk mənşəli əhali çoxluq təşkil etdiyi üçün Şərqi Gürcüstan Didi Türk oba - Böyük Türk obası adlanırdı. Daha sonralar bu türk soyları içərisində qazax tayfaları çoxluq təşkil etdiyinə görə məkanın adı bu şəkildə qalmışdır. Məşhur şərqşünas alimlər V.Velyaminov-Zernov, V.Bartold, A.Yudin də bizim yuxarıda irəli sürdüyümüz izahın tərəfdarları olmuşlar [1, s.328].

Tarixin müxtəlif dönəmlərində indiki Qazax rayonunun ərazisi öz dövrünə uyğun olaraq müxtəlif inzibati ərazi bölgülərinin tərkibinə daxil edilmişdir. XV əsrin ortalarından Qazax sultanlığı yaradılmışdır. Məqaləni işləyərkən bir neçə məqalədə bu sultanlığı qazaxlıların nəslinin, sonra "Şıxlınski " adlandırılan nəslin nümayəndələrinin idarə etdiklərinə rast gəldim.

Lakin,bu haqda dəqiq tarixi mənbə tapmadığım üçün qəti bir fikir də deyə bilmərəm. Qazax sultanlığı Qarabağ bəylərbəyliyinə tabe idi. XVIII əsrin əvvəllərində Osmanlı işğalı dövründə sultanlıq Qazax sancaqı elan edilmiş və 4 nahiyəyə bölünmüşdür. Hazırda İstanbulda Başkanlıq arxivində saxlanılan 1828-ci il,Türklərin idarəçiliyi dövründə tərtib edilmiş 1046 səhifədən ibarət "Dəftəri müfəssəl əyaləti Tiflis" dəftərinin 63-cü səhifəsində Qazax sancaqlığının 205 kənddən,10 qışlaqdan ibarət olduğu və 5 köçəri tayfanın yaşadığı qeydə alınmışdır [6].

1801-ci ildə Qazax sultanlığı Şərqi Gürcüstanın tərkibində Rusiya tərəfindən ilhaq edildi. Bu, Rusiya tərəfindən Azərbaycanın işğalının başlanğıcı idi. 1819-cu ildə sultanlıq ləğv edilərək distansiyaya çevrildi. 1867-ci il 9 dekabrda Yelizavetbol quberniyası yaradıldı və Qazax onun tərkibində qəzaya çevrildi. Qazax qəzasının tərkibində sovet dövründə Ermənistana verilmiş ərazilərimiz Dilican dərəsi, Göyçə gölünə qədər olan ərazilər -İcevan, Qaraqoyunlu mahalı-Noembryan, Çəmbərək- Krosnoselsk də var idi. 1929-cu ildə Qazax qəzası ləğv edildi. 1930-cu il 8 avqustda isə Qazax rayonu inzibati-ərazi vahidi yaradılmışdır [3, s.16].

Hazırda Qazax rayonunun ərazisi 692 kvadratkilometr,əhalisi 98 000 min nəfərə yaxındır.Qazax rayonunun ərazisinin 77 kvadrat kilometri, yəni 11%-i və yaxud 7 kəndi erməni faşistləri tərəfindən 1990 ci iillərdə işğal edilsə də 2024 cü ildə bu kəndlərdən Bağanis Ayrım,Qizilhacılı, Aşağı Əskipara və Xeyrimli kəndləri azad olunmuş, Sofulu, Barxudarlı və Yuxarı Əskipara anklav kəndləri isə işğal altındadır. Rayonda bir şəhər, 34 kənd vardır. Rayon Ermənistan ilə 168 kilometr məsafədə həmsərhəddir.

Rayonun tarixi keçmişi ilə bağlı kiçik tanışlıqdan sonra Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı şərşivəsində bugünkü sosial-iqtisadi inkişaf dinamikasına da nəzər yetirək.

Yuxarıda qeyd edildiyi kimi 2004 cü ildən başlayaraq Regionların sosial-iqtisadi inkşafı Dövlət Proqramı çərçivəsində 2004-2008, 2009-20013 və 2014-2019 cu illərdə rayonda nəzərdə tutulmuş tədbirlərin icrasına məsuliyyətlə yanaşılaraq uğurla həyata keçirilmişdir.

Abad yurd yolundan bəlli olar demişlər.İlk olaraq onu qeyd edək ki,inşasına hələ 2000 ci ildən başlanmış 503 kilometrlik Bakı-Ələt-Qazax yolunun Qazax rayonunu ölkəmizin paytaxtı və digər rayonları ilə birləşdirən 94 kilometrlik hissəsinin iki zolaqda yenilənməsi hələ 2006 ci ilin noyabrında başa çatmışdır. İki zolaqlı 38 kilometrlik Qazax dövlət sərhəd yolunun tikintisi isə 2009 cu ilin birinci yarısında istifadəyə verilmişdir.

Daha sonrakı dövrdə də bu işləri həyata keçirmək üçün Azərbaycan Respublikasının Prezidenti, cənab İ.Əliyevin 13 aprel 2012 ci il tarixində "Qazax Rayonunun sosial-iqtisadi inkişafının surətləndirilməsinə dair əlavə tədbirlər haqqında", 01 iyun 2012 ci il tarixində "Qazax rayonunda Ədəbiyyat Muzeyinin tikintisi haqqında", 18 fevral 2013 cü il tarixində yenə "Qazax rayonunda sosial-iqtisadi inkişafın surətləndirilməsinə dair əlavə tədbirlər haqqında", 08 iyul 2013 cü il tarixində "Qazax rayonunda sosial-iqtisadi inkişafın surətləndirilməsinə dair", 07 oktyabr 2013 cü il tarixində "Qazax rayonunda sosial-iqtisadi inkişafın sürətlədirilməsinə dair əlavə tədbirlər, 05 dekabr 2014 cü ildə imzaladığı "Qazax rayonunun Qazax Quşçu-Ayrım avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" imzaladığı müxtəlif Sərəncamlara əsasən Qazax rayonunda bir çox işlər görülmüş, əhalinin sosial, maddi vəziyyətinin yaxşılaşdırılması üçün müxtəlif infrastruktur layihələr işlənmiş, müasir tələblərə cavab verən maddi, məişət, idman və müalicə kompleksləri tikilib istifadəyə verilmiş, abad yollar çəkilmişdir.

Qeyd edilən müddət dövründə Respublika prezidenti Qazax rayonuna səfərlər etmiş, 2010-cu ildə tikintisi başa çatmış Qazax-Gürcüstan avtomobil yolundan Daş Salahlı kəndinə çəkilmiş yolun açılışında, Qazax rayonunun mərkəzindən Quşçu Ayrım kəndinə çəkilmiş yolun 15 kilometr hissəsinin açılışında, tikintisi 2010-cu ildə başlamış "AKKORD" sement zavodunun açılışında iştirak etmişdir.

Respublika Prezidentinin yuxarıda sadalanan Sərəncamlarında Respublika büdcəsindən və eyni zamanda Prezidentin Ehtiyat Fondundan tikinti, quraşdırma, təmir işləri üçün milyonlarla manat pul vəsaiti ayrılmışdır.

Misal olaraq qeyd edək ki, 1 iyul 2012-ci il tarixli 2255 nömrəli Sərəncamında Qazax şəhərində Ədəbiyyat muzeyinin tikintisi üçün Azərbaycan Respublikasının dövlət büdcəsindən, Azərbaycan Respublikasının Prezidentinin Ehtiyat Fondundan bir milyon manat ayrılmışdır. Muzeyin tikintisi başa çatdırılmış və istifadəyə verilmişdir [4, s.4].

Azərbaycan Respublikası Prezidentinin 18 fevral 2013-cü il 2730 nömrəli sərəncamı ilə 26 000 nəfər əhalinin yaşadığı 15 yaşayış məntəqəsinin yolunun tikintisi məqsədilə 6,9 milyon manat pul ayrılmışdır.

Yuxarıda qeyd edildiyi kimi, 15 iyul 2012-ci ildə prezident İlham Əliyev Qazaxa səfər edərkən həmin yolun 15 km hazır hissəsinin, Mədəniyyət muzeyinin və Yeni Azərbaycan Partiyasının Qazax filialı üçün 2012-ci ildə müasir standartlara cavab verən yeni binaasının açılışında iştirak etmişdir.

2013-cü ildə içməli su çatışmamazlığından əziyyət çəkən Orta Salahlı kəndində iki artezian quyusu qazılmışdır. Çaylı kəndində 640 nəfərlik 2 saylı, Daşsalahlıda 640 nəfərlik 2 saylı, ikimərtəbəli, Üçməzli kəndində isə birmərtəbəli 180 şagirdlik məktəblər tikilib istifadəyə verilmişdir.

2012-ci ildə Ümumilli lider Heydər Əliyevin abidəsi ucalmış, abidə ətrafında park salınmışdır. Parkın ərazisində rəqəmsal planetarium,elektron kitabxana və funksional əlaqə studiyasını birləşdirən "Heydər Əliyev Elm Mərkəzi "fəaliyyət başlamışdır. Yenə həmin ildə ümumi sahəsi 1160 kvadrat kilometr olan Gənclər Mərkəzi və göz oxşayan Şahmat Məktəbi tikilib istifadəyə verilmişdir.

2003-cü ildən 2012-cü ilin birinci rübünədək rayonda 190 müəssisə yaradılmış, 5213-ü daimi olmaqla 7543 yeni iş yeri açılmışdır.Qarabağ müharibəsi əlilləri və şəhid ailələri də diqqətdən kənar qalmamışdır. 2003-2011-ci illərdə onlar üçün iki ədəd 16 mənzilli və bir ədəd 24 mənzilli, doqquz ədəd fərdi yaşayış evi tikilmişdir. Şəhərin küçə və parkları abadlaşdırılmış, işıqlandırılma sistemləri yenidən quraşdırılmışdır. Olimpiya İdman Kompleksi, Müalicə-Diaqnostika Mərkəzi, "İmperial" meyvə-tərəvəz müəssisəsi, "Şahnigar" şərab zavodu, Xalça sexi,10 00 min ton qarışıq yem istehsal edən və 500 min ton taxıl elevatoru olan yem istehsalı zavodu -"Ros Prominvest" yem istehsalı zavodu, Rayon Maliyyə Şöbəsinin binası, DSMF Qazax rayon şöbəsinin binası, Respublika Təhlükəsizlik Nazirliyinin Qazax şöbəsinin üçmərtəbəli binası tikilərək istifadəyə verilmişdir. Bunlardan əlavə Qazax şəhərinin və Şixli kəndi ərazsindən keçən çayların üzərində üç körpü tikilib istifadəyə verilmişdir [5, s.4].

2015-2016 ci illərdə də rayona Dövlət Proqramı çərçivəsində tikinti abadlıq işləri davam etdirilmiş, insanların sosial rifahının yaxşılaşdırılması üçün bir sıra tədbirlər həyata keçirilmişdir.

Qazax şəhərində bir sıra binaların,o cümlədən Bakı-Tibilisi magistral yolunun kənarında yerləşən 5 mərtəbəli yaşayış binasının fasadı sökülərək yenisi ilə əvəz edilmişdir. Şəhərin küçə və parklarında yeni işıqlandırma sistemləri quraşdırılmışdır. Şəhərin mərkəzi küçələrində 6800 kub metr asvalt örtüyü yenilənmiş, eləcə də rayonun bəzi kənd yaşayış məntəqələrində 40 kilometrdən çox daxili yollara qum-çınqıl döşənmişdir. Qazax şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə "Tarix Diarşünaslıq Muzeyi" və "Bayraq Muzeyi"nin tikintisi başlanmışdır.

Respiblika Prezidentinin sərəncamına uyğun olaraq 2015-ci ildə kəndlərdə su qıtlığından əziyyət çəkən əhali üçün qazıntısı nəzərdə tutulan 9 subartezian quyusunun qazıntısı da ilin sonuna başa çatdırılmışdır.

Eləcə də Qazax rayonunun Qazaxbəyli kəndi ərazisində 304 məcburi köçkün ailəsi üçün bütün infrastruktur xidmətlər daxil olmaqla qəsəbə tikintisi başa çatdırılmışdır.

2015-ci ildə Qazax rayonunu köhnə Mərkəzi xəstəxanasının yerində 145 çarpayılıq müasir tələblərə cavab verən 145 nəfərlik yeni xəstəxana tikintisinə başlanılmışdır. Eləcə də ölkəmizdə fəaliyyət göstərən Yaponiya səfirliyinin dəstəyi ilə Daş salahlı kəndində fəaliyyət göstərən Həkim məntəqəsi yenidən tikilərək istifsdəyə verilmişdir [7].

Qazax konserv zavodunda tikintisi 2014-cü ildə başlanmış, yeni avadanlıqlar, soyutma, havalandırma və isitmə texnologiyaları ilə təhciz olunmuş 5500 ton kartofu təbii formasında saxlaya biləcək yeni kartof anbarının tikintisi başa çatmışdır.

Rayonda istifadəyə verilən istehsal sahələri həm də yeni iş yerlərinin açılması baxımdan təqdirəlayiq olmuşdur. Belə ki, 2015-ci ildə "Saloğlu"mebel firmasının ikinci hissəsinin açılıb istifadəyə verilməsi ilə 153 nəfərin, Xanlıqlar kəndində iki yeni əhəng zavodunun açılması 300 işsiz şəxsin işlə təmin olunması ilə nəticələnmişdir. Yuxarıda qeyd etdiyimiz kimi əgər, 2003-cü ildən 2012-cü ilin birinci rübünədək rayonda 190 müəssisə yaradılıb, 5213-ü daimi olmaqla 7543 yeni iş yeri açılmışdırsa da, 2003-cü ildən 2016-ci ilin əvvəllərinə qədər isə 290 müəssisə yaradılmış, 10130 daimi olmaqla, 12498 yeni iş yeri açılmışdır. Təkcə 2015-ci ildə Qazax rayonunda 17 yeni özəl və dövlət müəsisəsi yaradılmış, 753 nəfər işə götürülmüşdr ki, bunlardan da 494 nəfəri daimi iş yerləri olmuşdur [7].

2015-2016-cı illərdə Qazax rayonunda yeni yolların çəkilişi yenə də davam etdirilmişdir. Erməni işğalçıları ilə sərhəd olan Qazax-Quşçu Ayrım yolunun Alpout kəndi ilə Quşçu Ayrım kəndini birləşdirən hissəsində əhalinin təhlükəsizliyi baxımından ikinci alternativ yolun çəklişinə başlanmışdır.

Bu baxımdan Məzəm və Bala Cəfərli kəndlərində əhalinin təhlükəsizliyini təmin etmək üçün 428 p/m istinad divarları inşa edilmişdir. Yeri gəlmişkən qeyd edim ki, istinad divarlarının olmaması ucbatından doğma qardaşım, Azərbaycan ordusunun baş leytinantı (indi polkovniki) Asəf Əhmədov 1996-ci ildə xidməti vəzifəsini yerinə yetirib geri dönərkən məhz Bala Cəfərli kəndində təhlükəli ərazidə mina yarası almış, sağ ayağın pəncə hissəsi amputasiya olmuşdu.

Qazax rayonu həm də böyük kənd təsərrüfatı rayonlarımızdan biridir. Burada əhali heyvandarlıq, taxılçılıq, kartof əkilməsi, meyvə tərəvəz əkilməsi, üzümçülük və təsərrüfatın digər sahələri ilə məşğul olur. 2015-ci ildə rayonun Qaymaqlı kəndində yeni tipli ferma heyvandarlıq təsərrüfatı yaradılmış, oraya lizinq yolu ilə Almaniyanın məşhur "Holisteyn –Friesian"cinsindən olan 75 baş düyə gətirilmişdir. Orta Salahlı kəndində isə 2015-ci ildə 30 min başlıq quşçuluq sexinin inşası başlamışdır.

Nəticə olaraq qeyd edim ki, Respublika Prezidenti İ.Əliyevin 2004-cü ildə irəli sürdüyü "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" bəhs edilən dövrdə Resbublikamızın bütün rayonlarında olduğu kimi Qazax rayonun da da uğurla həyata keçirilmiş, xalq təsərrüfatında canlnama baş vermiş, yeni iş yerləri açılmış, kəndlər, şəhərlər abadlaşdırılmış, əhalini güzarənı xeyli yaxşılaşdırılmışdır. Kənd təsərrüfat sahələrində yeni texnologiyalarla işlədilən kənd təssərrüfatı texnikası və maşınlarından istifadəyə başlanılmışdır ki, bu da məhsuldarlığın artmasına müsbət təsir göstərmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Milli Ensklopediyası 25 cilddə. Məsul katib akademik T.M.Nağıyev. "Azərbaycan" xüsusi cildi. Bakı: Azərbaycan Milli Ensklopediyası. Elm mərkəzi, 2007, 881 s.
2. İsayev Ə. Ölkənin Qərb qapısında idman bayramı / Azərbaycan qəzeti, 2015, 19 may, s.9.
3. Ümumi məlumat.-"Azərbaycan Respublikasının inzibati ərazi vahidləri" –inzibati kənd rayonları (01.01.2006), s.12.
4.Yusifbəyli.Ə. "Qazax: sosial-iqtisadi inkişafın uğurlu nəticələri. "Respublika", 2014, 7 mart, s.4.
5. Yusifbəyli Ə. "Qazax: faktlar inkişafdan xəbər verir. "Respublika", 2012, 23 sentyabr, s.4.
6. https://az.wikipedia.org/wiki/Qazax_rayonu [01.11.2025].
7. http://qazax-ih.gov.az/news/314.html [01.11.2025].

ШАХЛА АХМЕДОВА
Старший преподаватель Сумгаитского государственного университета, докторант Института истории имени Бакиханова НАНА

СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ ГАЗАХСКОГО РАЙОНА В 2009-2016 ГОДАХ

После обретения Азербайджаном независимости в 1991 году было необходимым требованием времени реализовать стратегию с определенной программой по устранению утраченного вида, продуктивности и дезорганизации народных и сельскохозяйственных угодий, оставшихся с советских времен в стране. Такая программа была оглашена президентом страны Ильхамом Алиевым в 2004 году, менее чем через год после прихода к власти. Это была Государственная программа экономического развития регионов, объявленная на благо страны и народа. В программе предусмотрен план мероприятий с учетом географического, экономического и социального положения каждого региона страны.В нашей статье, согласно Государственной программе, о социально-экономических работах, проведенных с 2009 по 2016 годы для социально-экономического развития Газахского района, который является западным регионом нашей страны. Информация дана в эти годы строительно-монтажные, ремонтно-восстановительные Мероприятия проводились согласно поручениям

Ключевые слова: Казах, социально-экономический, Указ Президента, Госпрограмма, регионы.

SHAHLA AHMADOVA
Senior lecturer at Sumgayit State University,
PhD student at the Institute of History named after Bakikhanov of ANAS

SOCIOL-ECONOMICAL DEVELOPMENT OF QAZAKH REGIONS IN 2009-2016

After Azerbaijan gained independence in 1991, it was a necessary requirement of the time to implement a strategy with a certain program to eliminate the lost appearance, productivity and disorganization of the folk and agricultural fields left over from the Soviet era in the country. Such a program was announced by the country's president Ilham Aliyev in 2004, less than a year after coming to power. It was the State Program for Economic Development of Regions announced for the welfare of this country and people. In the program, a plan of actions is provided, taking into account the geographical, economic and social position of each region in the country. In our article,according to the State Program,the socio-economic activities carried out from 2009 to 2016 for the social and economic development of Gazakh district,which is the western region of our country,were reported. In these years, construction, installation, repair and restoration measures carried out according to the orders of the country's president and funds allocated from the budget have been mentioned.

Keywords: Kazakh, State Program, social economic, president order’s, regions.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 noyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Sona Məhərrəmova, t.e.d. Qabil Əliyev.